

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

# LERİK

№ 15 (5575) ✹ 14 Dekabr 2016-cı il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiyməti 40 qəpik


# YENİ İLİNİZ MÜBARƏK OLSUN!

## Azərbaycan xalqının Ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin anım mərasimi keçirildi

**Heydər Əliyev Meydanında Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin vəfatının 13-cü il dönümü münasibəti ilə anım mərasimi keçirildi.**

Rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov, hüquq mühafizə orqanlarının rəhbərləri ümummilli liderin abidəsini ziyarət edərək, xatirəsini ehtiramla yad etdilər.

Sonra rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların kollektivləri, ağsaqqallar, rayon ictimaiyyətinin nümayəndələri, məktəblilər Ümummilli Lider Heydər Əliyevin abidəsi önündən keçərək abidənin önünə tər gül-çiçək dəstələri düzdülər, Ulu Öndərə sonsuz ehtiramlarını bildirdilər.

Daha sonra Heydər Əliyev Mərkəzində Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş elmi-praktik konfrans keçirildi. Konfrans iştirakçıları Heydər Əliyev Mərkəzində ümummilli liderin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış oldular və



ümummilli liderin həyatını əks etdirən "Tarixin Heydər Əliyev zirvəsi" adlı qısa metrajlı sənədli filmə tamaşa etdilər.

Konfransı giriş sözü ilə açan icra hakimiyyəti başçısı Rövşən Bağırov ümummilli lider, ulu öndər Heydər Əliyevin keçdiyi mənalı, şərəfli həyat yolundan, qurucusu və memarı olduğu müstəqil dövlətimizin iqtisadi cəhətdən gücləndirilməsi istiqamətindəki heç bir ölçüyə sığmayan fəaliyyəti barədə geniş məlumat verdi. Məhz Heydər Əliyev dühası nəticəsində qazanılan dövlət müstəqilliyimiz xalqımızın tarixdə etdiyi ən böyük nailiyyətdir və dahi şəxsiyyət Heydər Əliyevdən bizə müqəddəs yadigar olduğunu qeyd etdi. Bildirdi ki, Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və xalqımızın rifahı naminə göstərdiyi fəaliyyət xalqımız tərəfindən həmişə fəxrlə yad edilir. Azərbaycançılıq məfkurəsini dövlətçilik ideologiyasına çevirən ulu öndərin əbədiyyətə qovuşmasından 13 il ötsə də, onun ideyaları Azərbaycan Respublikasında möhtərəm Prezidentimiz cənab İlham Əliyev və xalqımız tərəfindən uğurla həyata keçirilir. Dünyada müharibə və iqtisadi böhranın davam etdiyi bir vaxtda Azərbaycanda sabitlik hökm sürür, dövlətimiz gündən-günə inkişaf edir.

Konfransda YAP Lerik rayon təşkilatının sədri Elxan Qənbərov "Heydər Əliyev Yeni Azərbaycan Partiyasının qurucusudur", təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov "Heydər Əliyev və Azərbaycan təhsili", Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov "Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında", Lerik şəhər 2 saylı məktəbin müəllimi Mehriban Xanəliyeva "Heydər Əliyev və Azərbaycanda qadın siyasəti" mövzularında geniş məruzə etdilər. Ağsaqqallar adından Əliənnağı Əliyev çıxış edərək müasir Azərbaycan dövlətinin memarı və qurucusu olmuş Ulu Öndərin həyatı, dövlətçilik tariximizdə mühüm əhəmiyyət kəsb edən 34 illik siyasi fəaliyyəti haqqında ətraflı məlumat verdi. Bildirildi ki, ötən əsrdə iki dəfə xalqımızın və dövlətçiliyimizin ən ağır vaxtında məsuliyyəti öz üzərinə götürərək siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev öz uzaqgörən siyasəti ilə Azərbaycanı inkişaf yoluna çıxarmış, dövlətçiliyimizi məhv olmaqdan xilas etmişdir. Bütün bu xeyirxah əməlləri ilə xalqın ürəyində özünə əbədilik qazanmışdır.

İllər keçsə də sözün əsl mənasında böyük Azərbaycanlı Heydər Əliyevin dühası hələ uzun illər müstəqil Azərbaycan dövlətinin, onun bütün varlığı ilə sevdiyi Azərbaycan xalqının yoluna işıq saçacaqdır.





## ƏLİLLƏRLƏ GÖRÜŞ KEÇİRİLDİ



Beynəlxalq Əlillər Günü münasibəti ilə Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasında rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov rayon ərazisində yaşayan bir qrup əlillə görüşdü. İcra hakimiyyətinin başçısı Rövşən Bağırov görüş iştirakçılarını təbrik edərək bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən əlillərə, o cümlədən Qarabağ müharibəsi əlillərinə, eləcə də şəhid ailələrinə diqqət və qayğı göstərilir. Bu kateqoriyadan olan vətəndaşların pensiya və müavinətlərinin məbləğləri mütəmadi olaraq artırılır, onların sosial-məişət və mənzil şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülür. Son illər bu sahədə rayonda da bir sıra işlər həyata keçirilmişdir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün hər biri 16 mənzilli olmaqla iki yaşayış binası tikilmiş, həmçinin fərdi yaşayış evləri inşa olunmuş, eyni zamanda onlara minik avtomobilləri verilmişdir. Cənab Prezidentin tapşırığına əsasən rayonda əlillər üçün hər cür şərait yaradılmış, onların qaldırdığı problemlərin həllinə daim diqqət göstərilmişdir. Qarabağ müharibəsi əlilləri, Çernobıl əlilləri, Böyük Vətən müharibəsi əlilləri, habelə digər kateqoriyadan olan əlillərlə mütəmadi görüşlər keçirilir, onların problemlərinin həllinə diqqət yetirilir. Bu istiqamətdə tədbirlər bundan sonra da davam etdiriləcəkdir.



Daha sonra bu ilin aprel ayında Silahlı Qüvvələrimizin həyata keçirdiyi uğurlu hərbi əməliyyatlardan danışan rayon icra hakimiyyətinin başçısı həmin günlərdə müharibə əlillərinin hər an döyüşə hazır olmaları haqqında müraciətlərini yüksək qiymətləndirdi, işğal altında olan torpaqlarımızın Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında tezliklə azad ediləcəyinə əmin olduğunu bildirdi.

Görüşdə Qarabağ müharibəsi əlillərindən Bəhlul Rəhimov, Arzuman Nəhmətov, Şahin Əhmədov, Zeynal Aslanov, Cəlal Məmiyev və digərləri çıxış edərək onlara göstərilən qayğı və diqqəti daim hiss etdiklərini, bunun sayəsində bir çox məsələlərin həll edildiyini, bütün bunlara görə dövlət başçısına və rayon rəhbərliyinə minnətdarlıqlarını bildirdilər, həmçinin, qarşılaşdıqları bir sıra sosial problemlərinin həlli istiqamətində təkliflər səsləndirdilər.

Qarabağ Müharibəsi Əlillləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Lerik rayon şöbəsinin sədri Veysəl Məlikov çıxış edərək rayon icra hakimiyyəti başçısının təşəbbüsü ilə hər il Beynəlxalq Əlillər Günündə əlillərlə görüş keçirilməsini yüksək qiymətləndirdiklərini, qaldırılan məsələlərin bundan sonra da həll ediləcəyinə əmin olduqlarını ifadə etdi.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov görüş iştirakçılarının irəli sürdükləri məsələlərin tezliklə həll olunması üçün tapşırıqlarını verdi.

Tədbir çay süfrəsi ətrafında davam etdirildi.

## Rayon icra hakimiyyətinin başçısı Lerik şəhərində vətəndaşlarla səyyar görüş-qəbul keçirdi



Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov görüş iştirakçılarını salamladı və 17 Noyabr Milli Dirçəliş Günü münasibəti ilə təbrik etdi. Bildirdi ki, cənab Prezidentin göstərişinə əsasən yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbula toplaşmışıq. Bu gün təsdiq edilmiş qrafikə uyğun olaraq sizlərlə birlikdəyik. Məqsədimiz cənab Prezidentin tapşırığına əsasən əhali ilə bilavasitə yerlərdə görüşüb, problemlərini dinləməkdir. Aidiyyəti idarə rəhbərləri, hüquq mühafizə orqanlarının rəhbərləri burada iştirak edir. Bildiyiniz kimi son on ildə cənab Prezidentin qayğı və diqqəti, tapşırığı və Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş Dövlət Proqramlarının uğurlu icrası nəticəsində rayonumuzda bir çox işlər görülmüşdür. Lerik şəhəri və kəndlərimizdə abadlıq, tikinti-quruculuq işləri həyata keçirilmiş, yeni iş yerləri açılmış, təhsil, səhiyyə müəssisələri, idarə və təşkilatlar üçün yeni binalar, uşaq bağçaları tikilib istifadəyə verilmişdir. Cənab Prezidentimiz rayonumuza xüsusi diqqət və qayğı göstərir. 01 noyabr 2016-cı il tarixdə cənab Prezidentimizin Noda-Şingədulan-Xanagah yolunun tikintisinin başa çatdırılması ilə əlaqədar imzaladığı sərəncam bunun bariz nümunəsidir. Ötən 10 il ərzində 45 kəndimizə qaz xətti çəkilmiş hal-hazırda üç kəndimizdə də qazlaşma işi aparılır. Şəhərimizdə Heydər Əliyev meydanında, Həzi Aslanov küçəsinə qalxan pilləkənlərdə və "Şəhidlər" abidə kompleksində, N.Nərimanov, H.Aslanov, H.Şıxəliyev, A.Nuriyev, E.Qarayev küçələrində abadlıq və təmir işləri görülmüş, istinad divarları tikilmiş, ağaclar əkilmiş, yeni işıqlandırma sistemi qurulmuş və yollar asfaltlaşdırılmışdır. Kənd Təsərrüfatı İdarəsi üçün inzibati bina və 100 uşaq yerlik yeni uşaq bağçası inşa edilmişdir.



2015-ci ildə dünyada gedən iqtisadi böhran, neftin ucuzlaşması ölkəmizdən də yan keçmədi. Buna baxmayaraq 2015-ci ilin sonlarında cənab Prezidentin göstərişinə əsasən ölkədə məşğulluğun artırılması məqsədi ilə respublikamızda o, cümlədən rayonumuzda 36 yaşayış binasında təmir işləri aparıldı və daimi iş yerləri olmasa da 235 yeni iş yeri yaradıldı. Təmir-tikinti zamanı bütün kommunal binaların dam örtükləri dəyişdirildi, fasadları təmir olunaraq rənglənildi, bloklara dəmir qapılar qoyuldu.

Daha sonra rayon icra hakimiyyəti başçısı qeyd etdi ki, Lerik şəhərinə su xəttinin çəkilməsi və şəhərdə kanalizasiya sisteminin yaradılması səbəbindən bütün küçələrdəki asfalt örtüyü dağıdılmış, küçə və meydanlar sıradan çıxarılmışdır. Yay aylarında su xəttində qəzaların olması, su verilişində fasilələrin yaranmasına səbəb olur. Bunları sadalamaqla sizlərə bildirmək istəyirəm ki, bu problemləri biz bilirik və onların həllinə nail olmaq üçün səlahiyyətlərimiz çərçivəsində iş aparırıq, imkanlarımız daxilində olanların həllinə həmişə köməklik göstəririk.

Səyyar görüş-qəbulda çıxış edən vətəndaşlardan ağsaqqal Akif Tağıyev, Həbulla Vəliyev, Canəli Əliyev, Dilarə Fətullayeva, Hüsaməddin Abbasov, Nizaməli Əskərov və başqaları son illər Lerikdə aparılan tikinti-quruculuq işlərinə görə ölkə Prezidentinə və rayon rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Rayon icra hakimiyyəti başçısından şəhərdə mehmanxananın, "Veteranlar" və "Gənclər" evinin tikintisinə, su-kanalizasiya xətlərinin tikintisi və təmirinə, qəbiristanlığın abadlaşdırılmasına və ətrafının hasarlanmasına, avtomobil yolunun təmirinə, səkilərdə işıqlandırmanın təmir-bərpasına, şəhərdə zibilliklərin vaxtında təmizlənməsi və yeni zibil qutularının qoyulmasına, şəhərdaxili küçələrin asfaltlaşdırılması və digər sosial problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin qarşıdan gələn ildə icrasına nail olmaq məqsədilə tədbirlər Planının hazırlanması, digər zəruri tədbirlərin görülməsindən ötrü aidiyyəti vəzifəli şəxslərə yerində tapşırıqlar verildi. Səyyar qəbulda bir neçə vətəndaşın şəxsi məsələlərlə bağlı etdiyi müraciətlərlə əlaqədar müvafiq tapşırıqlar verildi.

## "Ölkəmizi tanıyaq" tur-aksiya iştirakçıları ilə görüşü keçirildi

**Lerik Rayon İcra Hakimiyyətinin konfrans zalında rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Gəncə - Şəmkir - Göygöl rayonlarında səfərdə olmuş rayonun təhsildə fərqlənən bir qrup 10-11-ci sinif şagirdləri ilə görüşü keçirildi.**



Tur-aksiya iştirakçılarını salamlayan rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə həyata keçirilən layihənin məktəblilərin ölkəmizdə gedən inkişaf, regionlarda aparılan quruculuq işləri və ən əsası Azərbaycanın rayonlarını tanıması, olduqları rayonların məktəbliləri ilə əlaqə qurması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd etdi. Bildirdi ki, "Ölkəmizi tanıyaq" devizi ilə həyata keçirilən maarifləndirici tur-aksiyada səyahət zamanı rayonların tarixini, mədəniyyətini özündə əks etdirən mərkəz və muzeylərdə, şəkil qalereyalarında olmaq həmin rayonlar haqqında bilgi əldə etməyiniz, eyni zamanda sizin dünya görüşünüzün artmasına səbəb olacaqdır.

Sonra rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov tur-aksiya iştirakçılarından gəzib-gördükləri yerlər haqqında təəssüratlarını dinlədi

Mastail kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Mirzəzadə Sevda, şəhər 3 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Rzazadə Ziya çıxış edərək "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində ilk dəfə iştirak etdiklərini, səfər çərçivəsində Gəncə şəhərinin, Göy-Göl və Şəmkir rayonlarının müxtəlif tarixi abidə və kompleksləri, Heydər Əliyev Mərkəzləri ilə tanış olduqlarını, Gəncə "Qala Qapı"larını, "Nizami" məqbərəsini, "İmamzadə" məscid kompleksini və Cavad Xanın dəfn olunduğu abidəni ziyarət etdiklərini qeyd etdilər və bu şəraiti onlara yaratdıqları üçün Azərbaycan Respublikasının Prezidentinə və Lerik Rayon İcra Hakimiyyətinin başçısına dərin minnətdarlığını bildirdilər.

# ORDUMUZ İFTİXARIMIZ, QÜRUR MƏNBƏYİMİZDİR

**"Aprel döyüşləri bizim şanlı tariximizdir. Azərbaycan bu döyüşlərdə nəinki öz gücünü göstərdi, düşmənə və dünyaya bir daha sübut etdi ki, biz indiki vəziyyətlə heç vaxt barışmayacağıq"**

**İlham Əliyev:**

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı və xanımı Mehriban Əliyevanın bir il ərzində Qarabağa - birbaşa cəbhə xəttinə iki dəfə səfər edərək həm yerli sakinlərlə, həm də qəhrəman hərbçilərimizlə görüşləri dünyaya göstərdi ki, əsgərindən mülki vətəndaşına, zabitindən kəndlisinə qədər hər bir azərbaycanlı mübariz əhval-ruhiyyədə, yenilməz ovqatdadır.

Cəbhə bölgəsinə səfər zamanı Prezident və xanımı Ağdam rayonunun Quzanlı qəsəbəsində Bayraq Muzeyinin, Heydər Əliyev Mərkəzinin açılışlarında iştirak etməklə bərabər, Quzanlı qəsəbəsində Muğam Mərkəzinin təməlini qoydular. Bütün bunlar bir daha göstərir ki, ölkə başçısı, dünyadakı iqtisadi böhrana rəğmən vətəndaşların rifahının daha da yüksəldilməsi üçün sosial layihələrdən imtina etmir, əksinə, onların bundan sonra da genişləndirilməsini planlaşdırır.

Düşmənin qarşısında həmişə mətin və dönməz dayanan Ağdam sakinləri Ali Baş Komandanla görüşlərində bir daha bəyan etdilər ki, bu qanlı savaşın məhz Prezident İlham Əliyevin əzmkarlığı sayəsində bitəcəyinə əmindirlər və müharibə başlasa hamı bir nəfər kimi Ali Baş Komandanın əsgəri olmağa hazırdır.

İllərin sınağından çıxmış bu sədaqət bir daha göstərir ki, ağdamlılar Prezident Ilham Əliyevə, onun qətiyyətli siyasətinə güvəndikləri üçün hətta atəş xəttində yaşasalar belə, torpaqlarını tərk etmirlər. Ölkə rəhbəri də rayon sakinləri ilə görüşlərində düşmənlə üzbəüz mövqelərdə yaşayan ağdamlıların fədakarlıqlarını, cəsarətini və torpağa bağlılıqlarını xüsusi vurğuladı, bunu əsl vətəndaşlıq nümunəsi kimi dəyərləndirdi.









## Milli Ordumuzun aprel dərsləri

Aprelin əvvəllərində qısamüddətli, çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin bir sıra mövqelərini ələ keçirən, hərbi obyektlərini darmadağın edən, yaşayış məntəqələrimizi işğaldan azad edən müzəffər Silahlı Qüvvələrimizın əzm və rəşadəti uzun illərdir ki, bu anı gözləyən xalqımızın hədsiz sevincinə, vətənpərvərlik və milli qürur hisslərinin alovlanmasına səbəb oldu.

Bir sıra strateji yüksəkliklər də daxil olmaqla, 2000 hektardan çox ərazinin döyüş əməliyyatları ilə geri qaytarılması düşmənin zəif ordusunu və ictimaiyyətini psixoloji baxımdan sındırdı, ciddi ruh düşkünlüyünə, bədbinliyə səbəb oldu. Ermənilərin kömək üçün havadarlarına təcili müraciət etmələri də bunun əyani göstəricisi idi!

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradə və qətiyyətini, habelə xalqımızın böyük dəstəyini hiss edən Silahlı Qüvvələrimiz son illərin ilk irimiqyaslı hərbi əməliyyatlarında yüksək taktiki-strateji hazırlıq səviyyəsi və işğal altında olan torpaqlarımızı azad etmək əzmi nümayiş etdirərək sınaqdan üzüağ çıxdı!

Azərbaycan Ordusunun qısa zamanda həyata keçirdiyi uğurlu hücum əməliyyatları - düşmənin çoxlu sayda canlı qüvvəsinin və zirehli texnikasının, habelə hərbi bazalarının güclü atəş zərbəsi ilə məhv edilməsi, strateji əhəmiyyətli ərazilərimizin geri qaytarılması insanların böyük coşqusu, sevinci və mənəvi dəstəyi ilə qarşılandı.

Rəşadətli hərbçilərimizlə görüşən Ali Baş Komandan İlham Əliyev bunu xüsusi vurğulayaraq demişdir: "Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir, uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir.

Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir".

Qoşunlarımızın təmas xəttindəki uğurlu əməliyyatları bir sıra reallıqları da üzə çıxardı! İlk növbədə məlum oldu ki, Azərbaycan xalqının milli maraqlarını daim önə çəkən, mürəkkəb geosiyasi məkanda qətiyyətli, düzgün qərarlar qəbul etmək cəsarəti ilə seçilən qüdrətli siyasi lideri, rəhbəri var. Həmin günlərdə Ali Baş Komandanımızın düşmənin hərbi təxribatlarının qarşısının alınması və layiqli cavabının verilməsi ilə bağlı əmrləri ordumuzun böyük ruh yüksəkliyinə səbəb olmaqla yanaşı, xalqımızın da böyük dəstəyi ilə qarşılandı! Qəlbində vətən, yurd sevgisi olan, ordusu ilə qürur duyan, onun uğuruna ürəkdən sevinən hər bir vətəndaş üçün aprel döyüşləri son dərəcə şərəfli və əlamətdar oldu.

## Vətənpərvərlik hissi və vətəndaşlıq məsuliyyəti çox yüksəkdir

Vətənpərvərlik elə bir hissdir ki, insanda mübarizlik, fədakarlıq, məğlubedilməzlik, qəhrəmanlıq yaradır. Vətənini dərin məhəbbətlə sevən insan özünü həmişə güclü hiss edir. Başqa sözlə, insanda vətənpərvərlik hissi qəhrəmanlığın əsasını qoyan amildir. Azərbaycan şanlı tarixi, əfsanəvi qəhrəmanları və alovlu vətənpərvərləri ilə həmişə fəxr edir. Məhz vətənpərvərlik duyğuları dərin olduğu üçün Azərbaycan xalqı dünyada qəhrəman xalq kimi tanınır.

Prezident İlham Əliyev bu günlərdə vətənpərvərlik nümunəsi nümayiş etdirən gənclərin bir qrupuna müraciət edərək demişdir: "Siz hərbçi peşəsini seçmisiniz. Bu, çox şərəfli peşədir. Ordumuzun gücü, ilk növbədə ordumuzda hökm sürən vətənpərvərlik ruhundadır. Döyüş qabiliyyətimiz də, vətən sevgisi də buna bağlıdır. Hər bir Azərbaycan gənci, hər bir vətəndaş vətənpərvər olmalıdır, vətəni hər şeydən çox sevməlidir və vətən uğrunda öz qəhrəmanlığını göstərməlidir. Sizin qarşınızda çox gözəl nümunələr var. Bu gün Lələtəpə ərazisində olarkən düşmənlə üz-üzə dayanan hərbçilərlə görüşərkən bir daha gördüm ki, bizim gənclərimiz nə qədər vətənpərvərdir, peşəkardır, vətənə bağlıdır".

Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında vətən uğrunda qəhrəmancasına həlak olmuş igidlərimizin ibrətamiz həyatı, şəxsi nümunəsi dövlətimizin apardığı hərbi-vətənpərvərlik tərbiyəsi işində ön plana keçib. Bu gün əsas vəzifə öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişməkdədir.

Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi əsasən təhsil prosesi ilə sıx bağlıdır. Azərbaycan mədəniyyətinə, təhsilə, vicdan azadlığına və bir çox digər sahələrə diqqət yönəltmədən bu duyğuları tərbiyə etmək mümkün deyil. Ona görə də ali və orta məktəb müəllimləri bütün qüvvə və bacarıqlarını doğma vətənə sədaqətli, hərtərəfli inkişaf etmiş, müstəqilliyimizi və dövlətçiliyimizi göz bəbəyi kimi qorumağa hazır olan nəslin yetişdirilməsinə sərf etməlidir. Hərbi dərslərə diqqət artırılmalıdır. Bu sahədə ali təhsil müəssisələri ilə hərbi hissələr arasında əməkdaşlıq yaradılmalıdır. Şagirdlərin və tələbələrin hərbi idman yarışları təşkil edilməlidir, sadələşdirilmiş hərbi təlimlər keçirilməli, xüsusi elmi və pedaqoji hazırlıqlı şəxslər tərəfindən yeniyetmə və gənclər arasında ideoloji-təbliğat işi gücləndirilməlidir. Təhsil müəssisələrində "Silahlı Qüvvələr aylığı", "Bu günün tələbəsi sabahın zabitidir" və s. mövzularda müntəzəm tədbirlər keçirilməlidir. Gənclərin hərbi hissələrdə əsgər və zabitlərlə görüşləri təşkil edilməli, çağırış vaxtı hərbi komissarlıqlarda yolasalma mərasimlərində gələcək çağırışçıların fəal iştirakı təmin edilməlidir. Gənclərin Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ilə görüşlərinin təşkili də önəmlidir. Bundan başqa, sosial və humanitar fənlərin tədrisi azərbaycançılıq ideologiyası üzərində qurulmalı, Azərbaycanın tarixi, coğrafiyası, hüdudları dəqiq şəkildə tədris edilməli, əhalinin etnik kökləri, dini tərkibi düzgün və qərəzsiz şəkildə əks olunmalıdır. Dərsliklərdə ömrünü xalqının maariflənməsinə, vətənin azadlığına və hərtərəfli inkişafı uğrunda mübarizəyə həsr etmiş şəxsiyyətlərin həyat və fəaliyyəti geniş əksini tapmalıdır. Həmçinin, tarixi qəhrəmanlarımızın, vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Milli Qəhrəmanların, şəhidlərin və Qarabağ müharibəsi veteranlarının mərdlik və hünərləri istər dərslərdə, istərsə də dərsdənkənar tədbirlərdə ətraflı öyrənilməlidir.

## Qətiyyətli, vədinə sadiq Ali Baş Komandan

Son illər Silahlı Qüvvələrin müasir silah-sursat və hərbi texnika ilə təchizatında əsaslı dəyişikliklər hiss edilir. Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğının nəticəsi olaraq ucqar döyüş nöqtələrində yaradılmış şərait şəxsi heyətin yüksək mənəvi-psixoloji ovqatda köklənməsinə, döyüş və mübarizə əzminə də müsbət təsirini göstərir. Əminliklə demək olar ki, bu gün Azərbaycan əsgərləri vətənpərvər, yüksək mənəvi-psixoloji hazırlığı olan, yetərincə müasir dünyagörüşünə malik gənclərdir. Onların həyat məktəbi adlandırdıqları hərbi xidmət yaşam tərzlərində müsbət iz buraxmaq və formalaşmalarına təsir göstərməklə bərabər, həm də Azərbaycan Ordusunun qarşısında müəyyənləşən vəzifələrin tezliklə gerçəkləşməsinə inam yaradır.

Ali Baş Komandan İlham Əliyev demişdir: "Ona görə aprel döyüşlərində qələbəmiz, bir daha demək istəyirəm ki, bizim - həm dövlətimiz, həm dövlətin bir qolu olan ordumuz, həm də vətəndaşlarımız üçün qəhrəmanlıq səhifəsidir. Bax, bu birlik bizdə var və əgər vətəndaşlar o vaxt bu qədər cəsarət göstərməsəydilər, əlbəttə ki, bu, bizim işimizə də mənfi təsir göstərə bilərdi. Vətəndaşlar öz cəsarəti ilə hərbçilərimizə əlavə güc, inam verdilər. Hərbçilərimiz də bilirdilər ki, onların arxasında Azərbaycan vətəndaşları yaşayır, onlar vətəndaşları qorumalıdırlar.

Biz ədalətin tərəfdarıyıq və ərazi bütövlüyümüzü bərpa etməliyik. Heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Əksinə, çalışmalıyıq və çalışacağıq ki, ölkəmizin gücünü artıraq, möhkəmləndirək və istəyimizə nail olaq".

Füzuli rayonunda olarkən ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olan Prezident, Ali Baş Komandan İlham Əliyev müdafiə qüdrətimizin, Ordumuzun döyüş qabiliyyəti və hazırlığının səviyyəsini yüksək dəyərləndirdi: "Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi... Azərbaycan Ordusu yenilməz ordudur... Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək".

Bu gün Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrdə böyük ruh yüksəkliyi var. Ermənistan silahlı qüvvələri aprelin 1-dən başlayaraq mövqelərimizi intensiv şəkildə atəşə tutmuşdu. Yaşayış məntəqələrinə, mülki əhaliyə ziyan dəymişdi. Azərbaycan Ordusu Ermənistan hərbi birləşmələrinin təxribatının qarşısını layiqincə aldı. Düşmənin xeyli canlı qüvvəsi, silah və texnikası məhv edildi. Ərazilərimizin bir hissəsi azad edildi, çox əlverişli yüksəkliklər Azərbaycan əsgərinin nəzarəti altına keçdi, həmin ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Biz ərazi bütövlüyümüzü tezliklə bərpa edəcəyik.

**FƏXRƏDDİN MİRZƏLİYEV,**
*Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin rəisi*

# DOLAN BULUD BOŞALACAQ...



**Bulud Mirələm oğlu Əliyev 1972-ci ilin əvvəlində Barzavu kəndində həyata göz açmışdır. O, Mirələm kişinin on övladından, dörd oğlundan biridir. 1992-ci ildə Rusiyada hərbi xidmətini başa vurduqdan sonra Lerikə qayıtmışdı. Artıq Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımız əldən gedir, vəzifə kürsüsünə hərislik, ordudakı hərc-mərclik səngimək bilmirdi.**

Cəbhədəki uğursuzluğa dair xəbərlər, oğullarımızın şəhid olması, milli qeyrət onu rahat buraxmırdı. "Vətənin bir parçası əldən gedibsə, mən evdə rahat otura bilmərəm, - deyə düşündü. - Vuruşan igidlərimizin sıraları seyrəlir. Onları əvəz edən döyüşçülərə ciddi ehtiyac var. Mən də cəbhəyə getməliyəm, ölüm-dirim savaşı aparanlara dəstək olmalıyam. Təki işğalçıların bəd niyyətlərinə son qoyulsun, düşmən gücümüzü hiss etsin "

Və bu düşüncələr onu bir an belə rahat buraxmırdı. Cavanşiri, Babəki, Koroğlunu, İkinci Dünya savaşının qəhrəmanlarını, tam artiellriya general-polkovniki Səməd bəy Mehmandarovu, xüsusilə də Sovet İttifaqı Qəhrəmanı adına iki dəfə layiq görülmüş qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanovu düşünərkən rahatlıq bilmirdi, onların göstərdikləri döyüş şücaətindən ruhlanırdı

Günlərin bir günü evdən təhsil almaq bəhanəsi ilə Bakıya yollandı. Valideynləri sonradan bildilər ki, Bulud hərbi komissarlığa müraciət etmiş, peşəkar hərbçi kimi birbaşa vuruşan cəbhəyə getmişdir. O, yaxşı bilirdi ki, barıt qoxulu səngərlərdə, qeyrətli oğullarımızın qanı çilənmək vətən torpaqlarında, yaşayış məntəqələrində onu nə gözləyir. İlk növbədə, ürəyinin dərinliklərindən keçən bu fikir oldu ki, şəhidlərimizin qisası alınmalı, arxalı, quduz düşmənin qarşısına sədd çəkilməli, hər qarış torpaq düşmənin ayağı altında od tutub yanmalıdır

1993-cü ilin dekabrı idi. Çoxdankı arzularını həyata keçirməyə çalışan ermənilərin əlinə fürsət keçmişdi. Şübhəsiz ki, xarici ölkələrdəki havadarlarının maliyyə-texniki imkanları, canlı qüvvəsi hesabına. Düşmən Azərbaycan əsgərinin ciddi müqavimətini, hər qarış torpaq uğrunda qan axıtmağını, düşmənə baş əyməməyini, hansı milli qeyrətə sahib olmasını hesaba almamışdı. Düşmən hər şeyə öz xisləti ilə, murdar sifəti ilə, qan tökməyə hərisliyi, insani simasını itirməsi, vəhşiliyi ilə, dağıdıcığı ilə baxırdı. Baxdı və öz cavabını da aldı.

Beyləqan istiqamətində döyüşlər şiddətli və qanlı idi. Düşmən hər addımda əsgərlərimizin müqaviməti ilə üz-üzə gəlirdi. Düşmən ədalətsiz, qəsbkar müharibə apardığı üçün gücsüz idi. Hər iki tərəf həm canlı qüvvə, həm də texnika itkisinə məruz qaldı. Bulud Əliyev həmin döyüşdə fərqləndiyi üçün mükafata layiq görüldü və məzuniyyətə buraxıldı. Lakin buna məzuniyyət demək olmazdı. Bulud yuxuda da müharibəni, yandırılmış kəndləri, şəhidlərimizi görür, elə hey cəbhəni, döyüşçü yoldaşlarını, müharibənin aqibətini fikirləşirdi, gəncləri qorxmamağa, vuruşmağa hazır olmağa ruhlandırırdı.

Bulud məzuniyyətdən qayıtdı. Dekabrın 30-da döyüşə girdi. Aşağı Veysəlli kəndi ağır döyüşdən sonra düşməndən təmizləndi. Həmin döyüşdə düşmənin xeyli canlı qüvvəsi məhv edildi, iki BMP-2, bir UAZ maşını ələ keçirildi. Dekabrın 31-də ermənilər yenə hücuma keçdilər. Kəşfiyyatçı-rabitəçi Bulud Əliyev öz vəzifəsini yerinə yetirərək komandiri Zülfəli Məmmədova lazımi məlumatlar verdi, əsgərlərimiz döyüş mövqeyi tutdular. Düşmən 8 tankla hücuma keçmişdi. Buludgilin bir tankı vardı, 50 nəfər əsgərlə mövqe tutmuşdular. Komandir Zülfəli Məmmədov Buludla bir səngərdə idilər. Düşmənin bir tankı məhv edildi. Komandirin əmri ilə Bulud tanklara atəş açmaq üçün artilleriya bölməsinə koordinatları verdi. Çox çəkmədi ki, ermənilərin daha 4 tankı sıradan çıxarıldı. Bulud səngərdən çıxdı. Düşmən mərmisi onun lap yaxınlığında partladı. Bulud torpağın altında qaldı. O, kontuziya almışdı. Düşmən tankı xeyli yaxınlaşdı, Buludu nişan aldı. Bu an bir döyüşçümüz düşmən tankını vurdu. Bulud qüvvəsini toplayıb torpağın altından çıxdı. Yox, hələ o sağdır, düşmənə hədəf olmaq, döyüş meydanını tərk etmək hələ tezdir

Döyüş axşamtərəfi ara verdi. Buludu və komandiri Zülfəli Məmmədovu qospitala çatdırdılar. Onlara tibbi yardım etdilər. Bulud çoxlu qəlpə yarası almışdı. Sağaldıqdan sonra yenidən barıt qoxulu səngərlərə qayıdan Bulud Füzuli bölgəsi uğrunda gedən döyüşlərdə xüsusi olaraq fərqləndi. Qızğın döyüşlərdə onu tanımaq olmurdu. Yeganə məqsədi düşməni məhv etmək idi. Torpaqlarımızı qorumaq üçün qüvvə və bacarığını, hərbi səriştəsini əsirgəmirdi.

Bulud Əliyev atəşkəsdən xeyli sonra - 1998-ci ildə Azərbaycan Universitetinin hüquq fakültəsinə daxil oldu. Hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsində işləyən Bulud Əliyev deyir:

- Mən torpaqlarımızı işğaldan azad oluncaya qədər hərbi işdən ayrılmayacağam, lazım gəlsə hər an döyüşə getməyə hazıram.

Şair gözəl deyib: "Dolan bulud boşalacaq,
Bu hökmüdür təbiətin".

Buludun ürəyi düşmənə nifrətlə doludur. Bütün əsgərlərimizə xas olan bu nifrət hissi boşalsa, düşməni işi fəna olar. Buludun boşalmasına çox qalmayıb.

***İdris Şükürlü***



## Onları tanımaq və tanıtmaq borcumuzdur

# XATİRƏLƏRDƏ YAŞAYAN TALIB MƏMMƏDOV

**İllər ötür, qərinələr keçir. Kəndin, el-obanın inkişafında, tərəqqisində rolu, əməyi olan, etdiyi təmənnasız yaxşılıqları xatırlanan şəxsiyyətləri, ağsaqqalları gənc nəslə tanıtmaq zərurəti meydana çıxır. Onları unutmağa mənəvi haqqımız yoxdur. Rayon qəzetinin, saf əqidəli, iti qələmli yazarların üzərinə düşən vəzifə vaxtilə Lerik rayonu üçün can yandıran, insanları ətalət buxovlarından azad etməyə çalışan, ictimai-siyasi şüuru düzgün istiqamətləndirən, yeni təfəkkür tərzi formalaşdıran, iqtisadiyyatı möhkəmləndirən belə şəxsiyyətlər haqqında ətraflı məlumat hazırlayıb çap etdirmək, yaddaşları təzələməkdir.**

**"Lerik"in bu sayından başlayaraq müəyyən səbəblər üzündən udulmaqda olan şəxsiyyətlər haqqında müntəzəm olaraq yazılar çap etdirəcəyik. Onları yaşlı nəslin nümayəndələri yaxşı xatırlayırlar. Məqsədimiz gənc nəslə say-seçmə ağsaqqallarımızı, ziyalılarımızı, vaxtilə Lerikdə işləmiş vəzifə adamlarımızı, qəhrəmanlarımızı tanıtdırmaqdır.**

**Bu rubrikada ilk yazını diqqətinizə çatdırırıq.**

Talıb Məmmədov Lerik rayon mərkəzindən xeyli aralıda yerləşən Kirəvud kəndində dünyaya göz açmışdır. Əsrin əvvəllərində Lerikin kəndlərində dünyəvi təhsil verən məktəb olmamışdır. Talıb da bu səbəbdən mollaxanaya üz tutmuşdur. Kirəvuda yaxın olan qonşu kənddə "Çərəkə"ni öyrənən Talıb həmin günləri xatırlayıb belə söyləyirdi:

- Düzü, mənə dərs deyən molla o qədər də savadlı deyildi, amma çox sərt idi. Məni şəxsi təsərrüfat işlərində o qədər işlədirdi ki, axşamlar ağırdan yata bilmirdim.

Bir gün molla məni yanına çağırıb dedi:

- Ay oğlan, (adını çəkmək istəmədi) bu gün dana-buzova meşədən iki şələ yarpaq gətirərsən.

Qorxudan dinmədim, dəhrə və ciyəni götürüö evdən yola düşdüm. Mollanın bu ədalətsiz tələbinə görə daha onun yanına getmədim.

Talıb Məmmədov orta təhsilini Şingədulanda, ali təhsilini isə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində almışdır. Birillik partiya məktəbini bitirərək həm Lerik rayon mərkəzində, həm də doğulduğu ərazidə müxtəlif vəzifələrdə işləmişdir.

Talıb Məmmədov rayon mərkəzində komsomolun birinci katibi, raykomda təbliğat-təşviqat şöbəsinin müdiri, kino birliyinin direktoru, Kirəvudla birlikdə olan Nücü sovetlikləri üzrə Sovet sədri, Kirəvud ərazisi üzrə otuzminçi kolxoz sədri, ömrünün sonuna yaxın Boykəndil kənd orta məktəbində tərbiyəçi müəllim işləmişdir.

Orta boylu, böyük diapozunlu səsə malik olan Talıbın yığıncaqlardakı çıxışları, müzakirə olunan məsələyə obyektiv münasibət həmişə alqışlarla qarşılanardı. Həmişə düz danışardı, cəmiyyətin xeyrinə çalışardı, çörək verən, yurdsevər adam idi

Talıbı görən, onunla həmsöhbət olan, Talıb haqqında oxucu üçün maraqlı məlumatları olan adamlar axtardım. Əməkdar müəllim Surxay Əsədov diqqətimdən yayınmadı. Onu axtardım, məqsədimi bildirdim. Surxay müəllim bir qədər duruxdu. Sanki xəyalən ötən illərə baş vurdu. Diqqətini toplayıb dedi:

- Talıb Lerikdə – raykomda təbliğat şöbəsinin müdiri idi. Mən görüşmək məqsədi ilə onun yanına getdim. Onun yanında tanımadığım adamı gördüyüm üçün otaqdan çıxmaq istədim. O, məni saxlayıb dedi:

- Mahmud kişi bazarda tanışları ilə söhbət edir. Onu Ənvər müəllimin (o, Ənvər Məmmədxanlı imiş) yanına çağır.

Mən bazarda öz görkəmilə seçilən Mahmud babanı çağırdım, Maraq xatirinə mən də otağa daxil oldum. Yazıçı Ənvər Məmmədxanlının Mahmud babaya verdiyi sual bu gün də yadımdadır. O, soruşdu:

- Mahmud baba, iştahan necədir?

- Oğlum, iştaham indi yoxdur. Bura gələndə bir kasa ərimiş yağa bir çörək doğrayıb yedim

Yazıçı çox ehtiyatla gülümsündü. Mahmud kişi haqqında kino-jurnal çəkildi. Talıb Məmmədov da orda iştirak edirdi.

Mahmud babanın keçmiş SSRİ məkanında dünyada tanıdılmasında Talıb Məmmədovun rolu çox olmuşdur. O, Mahmud babaya müdrik ağsaqqal kimi müraciət edərdi. Dostu, tanınmış yazıçı Məmmədhüseyn Əliyev 168 yaşlı Mahmud Eyvazov haqqında "Dağlar oğlu" roman yazıb çap etdirmişdi.

***Mən bazarda öz görkəmilə seçilən Mahmud babanı çağırdım, Maraq xatirinə mən də otağa daxil oldum. Yazıçı Ənvər Məmmədxanlının Mahmud babaya verdiyi sual bu gün də yadımdadır. O, soruşdu:***

***- Mahmud baba, iştahan necədir?***

***- Oğlum, iştaham indi yoxdur. Bura gələndə bir kasa ərimiş yağa bir çörək doğrayıb yedim.***

***Yazıçı çox ehtiyatla gülümsündü. Mahmud kişi haqqında kino-jurnal çəkildi. Talıb Məmmədov da orda iştirak edirdi.***

Böyük Vətən müharibəsi illərində Talıb kişi Kirəvud və Nücü əraziləri üzrə kənd Sovetinin sədri idi. Cəbhəyə yardım etmək təşəbbüsü kəndlərə də çatmışdı. Kənd yerlərində yaşayan adamlar öz evlərindən müxtəlif əşyalar: mis qazan, boşqab, teşt, müxtəlif ərzaq məhsulları göndərirdilər, pul yardımı edirdilər.

Kənddə qabaqcıl kolxozçu olan Abi Fərəcovun dedikləri:

- Talıb Məmmədov məni çağırıb dedi ki, sabah cəbhəyə yardım etmək üçün iclas keçirəcəyik. Sən cəbhəyə yardım etmək məqsədi ilə çıxış edib Ordahaldan Həsən kişini, Ərdəbilədən Bağış kişini də yarışa çağırasan. Sənin verdiyin beş yüz manatı mən sonra sənə qaytararam.

Söhbət zamanı biz ikimiz olduq. İclas oldu, Həsən də, Bağış da hərəsi 500 manat pul verdilər. Digər adamlar da pul yardımı etdilər. Pul Lerikə göndərildi.

Bir neçə gündən sonra Talıba dedim:

- Dediyinə qulaq asdım, indi pulu ver də.

O, bir neçə nəfəri yanına çağırıb dedi:

- Sən iclasda dedin pul verirəm, indi isə istəyirsən. Axı, müharibə gedir, hər gün evlərə "qara kağız"lar gəlir

Mən xəcalətdən bir də o sözü dilimə gətirmədim

- 1951-ci ildə Quba Müəllimlər İnstitutuna qəbul olundum. Qəbul üçün nə qədər sevimdisə, cibimin boşluğu üçün də o qədər fikirləşdim, - deyə Surxay Əsədov sözünə davam edir: - İsti yay günlərində ayağımda olan qaloşları bu gün də xatırlayıram. Böyük qardaşım Nuxada (Şəkidə), mən isə Qubada oxuyurdum. Atamın imkanları çox məhdud olduğu üçün bizə göndərdiyi pul ilə heç ayın yarısına çatmaq olmurdu.

Tələbə yoldaşlarım mənə dayaq olurdular. Cibim boş olduğu üçün çox fikirli və gücsüz idim. Yoldaşlarla bir yana getməyə utanırdım. Bir gün tələbə yoldaşlarımdan biri mənə dedi:

- Sənin üçün pul göndəriblər, get, poçtdan al.

Doğrusu, bu sözdən senvinmədim, utandım.

Pulsuz olmağımı hamı bildiyi üçün özümə qapılır, çox tək gəzirdim

Poçt yaxın olduğu üçün yoldaşlarım bilməsin deyə ora gəldim. Doğrusu, pul var idi: beş yüz manat! O qədər sevindim ki, pulu göndərəni bilmədim. Sonralar bildim ki, pulu Talıb Məmmədov göndərmişdir. Bu onun böyüklüyü və oxuyan gənclərə göstərdiyi qayğının əlaməti idi.

1977-ci ilin yayında Biləsuvara getməli oldum. Qohumlarımızdan biri vəfat etmişdi. Yas yerinə gəldik. Orucluq ayı olduğu üçün axundun oturduğu çadırda yemək verilmirdi.

Axud fatihə verəndən sonra hardan gəlməyimizi soruşdu. Axund ani olaraq fikrə daldı, dəsmalla gözlərini silərək dedi:

- Mən də Lerikdənəm. Bizi bura köçürüblər, amma bir qəhərli gün heç vaxt yadımdan çıxmaz.

- 1944-cü ilin yanvar ayı idi. Səhər tezdən atamla (ağamla) Lerikə gəldik. Mənim 9-10 yaşım olardı. Ağamı enkevede çağırdığı üçün mən ondan ayrılmadım. Lerikdə, Şeytantəpədə atamla dayanmışdım. Çox səliqə ilə geyinən, dolu bədənli, sarışın bir kişi atama salam verərək onunla görüşəndən sonra soruşdu:

- Ağa, xeyir ola, bu tezdən belə soyuqda niyə gəlmisən?

Ağam qəhərləndi, güclə dedi: - Məni enkevede çağırıb.

O, ağamın qolundan yapışıb öz otağına apardı. Mən də onların dalınca getdim.

Tanımadığım adam Talıb Məmmədov imiş. Ağam o gün tutulmalı idi, lakin Talıbın zəngi atanı xilas etdi. Biz ailəliklə ona borcluyuq.

Həmin Axund, Hacı Mirtöhid ağa idi. Talıb Məmmədovun yaxşılığını unutmamışdı.

Eşitdiyimə görə, o, ali məktəbdə oxuyanları həmişə yadda saxlayırmış. Onunla birlikdə işləyən, onu daha yaxından tanıyan Müslüm kişini də dinləmək çox xoş idi. Ömrünün 90-cı ilinə qədəm qoymağa hazırlaşan Müslüm kişi dedi:

- Talıb mənim ən yaxın doğmalarımdan biri idi. Çox möhkəm hafizəyə malik olan Talıb zahirən sərt görünsə də, əslində mehriban və şən adam idi. O etdiyi yaxşılıqlardan söz açmaz, kömək göstərdiyi adamları dilinə gətirməzdi.

Kəndimizdən üç nəfər Bakı Dövlət Universitetində oxuyurdu. onlar tətilə gələndə hökmən qonaqlıq verərdi. Onlara deyərdi:

- Bax, yaxşı oxuyun, mən də kolxozçuların razılığı ilə sizə yardım edim.

O, sözünün üstündə həmişə duran adam idi. Təsərrüfatı bacarıqla idarə edə bilirdi.

Təkcə Kirəvuddakıları deyil, Buruq, Ordahal, Aran və s. kəndlərdən oxuyanlara da yardım edirdi.

Talıb kişinin dostları da onu unutmurdular. Xanəndə Qulu Əskərov Kirəvudda olarkən mən də onunla təsadüfən görüşdüm. Qulu Əsgərov dedi:

- Talıb kişi, Sizin kəndi çox bəyəndim. İnsanları musiqiyə zövqlə qulaq asmağı bacarırlar, qonaqsevər və çörəkverən, böyük-kiçik yeri bilən adamlardır.

Azərbaycanın Xalq yazıçısı Əli Vəliyevin oğlu Məsud Əlioğlu Talıbgilə qonaq gəlmişdi. O da kəndi və adamlarını, bu yerlərin təbii gözəlliyini, ab-havasını çox bəyənmişdi.

Abbas Zamanov onun dostlarından biri idi.

Tale ona gözəl ailə bəxş etmişdi. Talıb kişinin ailəsində dörd oğlan, bir qız dünyaya gəlmişdi.

Böyük oğlu Əskər Məmmədov komsomolun Mərkəzi Komitəsində məsul işçi, Lerikdə komsomolun I katibi, Astara və Goranboyda (Qasım İsmayılov) raykomun birinci katibi, Nazirlər Sovetində sədr müavini işləmişdir. Əflatun öz taleyini müəllimliyə, Toğrul isə hüquq orqanlarına həsr etmişdir.

Bu gün Talıb Məmmədovu görənlərin, onunla həmsöhbət olanların, onun xeyirxahlığına şahid olanların sayı azalır. Onun xeyirxahlığı, alicənablığı, hörmət və izzəti dildən-dilə düşür, Talıbsevər xeyirxahların sayı azalmır.

***İdris Mütəllimoğlu***

# Dahilər haqqında kitab

**Hacı Musa Bədəlovun "Onları dünya tanıyır" kitabı çox lazımlı məlumatlarla zəngindir. Kitab biologiya elmləri üzrə fəlsəfə doktoru, Prezident təqaüdçüsü Hacı Musa Bədəlovun sayca 15-ci kitabıdır. Bu kitabı niyə yazdım? – sualına müəllif söz önündə belə cavab verir: "Bir dəfə tanıdığım ziyalılardan biri mənə zəng edib yunan filosofları barədə məlumat istədi. Ona cavab vermək üçün vaxt istədim. Arxivim köməyimə çatdı. Tutarlı cavablarım dostumu qane etdi. O, mənə minnətdarlığını bildirdi Fikirləşdim ki, məndəki qeydləri sistemləşdirib kitab halında çap etsəydim, daha yaxşı olardı, mənə müraciət edənlərə fayda verərdi".**

Kitabın adından məlumdur ki, kitab bütün dünyanın tanıdığı məşhur insanlar haqqındadır. Burada 66 dahi haqqında məlumat verilib. Müəllif müxtəlif mənbələrdən lazımi məlumatları toplayaraq hamının istifadəsi üçün dəyərli bir kitab yazmışdır.

Kitab sonuncu Peyğəmbər olan Həzrəti Məhəmməd (s.ə.s.) haqqında yazı ilə başlayır. Hacı Musa Məhəmməd Peyğəmbər (s.ə.s.) haqqında qısa məlumat verməklə, Allah kəlamı olan Qurani-Kərimin bir neçə ayəsini açıqlayır. Quranı Məhəmməd Peyğəmbərin (s.ə.s.) möcüzəsi adlandırır.

Şah İsmayıl Xətai haqqında yazı qısa da olsa maraqlıdır. Müəllif talış xalqının Şah İsmayıla mehribançılıq göstərməsini, ordusunda 2 min talışın döyüşməsini söyləyir. Bu bölmədə Çingiz xan, Teymur ləng, Makedoniyalı İsgəndər, Rza şah Pəhləvi, İ.V.Stalin, Mustafa Kamal Atatürk haqqında yazılar maraqlıdır.

Heydər Əlirza oğlu Əliyev haqqında yazı diqqəti cəlb edir. Ulu öndərimizi bütün dünya tanıyır. 2006-cı ildə Həcc ziyarətinə gedəndə İordaniyanın bir yaşayış məntəqəsində zöhr namazı qılmaq üçün dayandıq. Hündürboylu bir ərəb bizə yaxınlaşıb salam verdi, hardan olduğumuzu soruşdu. Azərbaycandan, Bakıdan gəldiyimizi söylədik. Ərəb ölkəmizi tanımadı. Heydər Əliyevin adını çəkdik. O, gülümsəyib: "Haydar, Haydar" – deyə-deyə bizimlə çox səmimi görüşdü. Azərbaycandan çox-çox uzaqlarda yaşayan bədəvi ərəbin ulu öndərimizi tanımağı bizi hədsiz dərəcədə sevindirdi.



Azərbaycan Respublikasının prezidenti İlham Əliyev haqqında yazılmış məqalədə qısa vaxt ərzində Azərbaycanın inkişaf etməsini, dünya ölkələri arasında xüsusi mövqeyə malik olmasını inandırıcı tərzdə qələmə alınmışdır. Müəllif yazır: "Bütün siyasi və diplomatik uğurların qazanılması Prezident İlham Əliyevin gərgin və məqsədyönlü fəaliyyəti ilə bağlıdır. 25 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycan 100 illik bir yolun keçdiyi təəssüratını yaradır".

Hacı Musa kitabda təkcə dahilər haqqında məlumatlar verməklə kifayətlənməyib. Onlardan bəzilərinin hamı üçün faydalı olan kəlamlarından, əsərlərindən qısa parçaları verir. Sədi Şirazinin hekayətləri, Əbdürrəhman Caminin "Baharistan" əsərindən parçalar, Abasqulu Ağa Bakıxanovun nəsihətamiz kəlamları bu baxımdan diqqəti cəlb edir.

"Onları dünya tanıyır" kitabı gərgin əməyin bəhrəsidir. Hacı Musanın yaşı doxsanı haqlasa da yorulmadan çalışır. O, Lerikin flora və faunasını yaxşı bilir. Hacı Musa Lerikdə bir arıçı kimi də məşhurdur. Alimin "Meyvə və toxumlar müalicə edir", "Lerikin faunası", "Xalq təbabəti", "Arıçılara məsləhət" və s. kitabları çoxlarının stolüstü kitablarıdır.

Görkəmli alim və el ağsaqqalı Hacı Musa haqqında mətbuatda çoxlu məqalələr yazılmışdır. Yazımı Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, Prezident təqaüdçüsü Ağacəfər Həsənlinin "Peyğəmbərin alim adaşı" oçerkindən aşağıdakı parça ilə bitirmək istəyirəm:

"O, (Hacı Musa) həqiqətən dupduru təbiət ensiklopediyasıdır. Ünsiyyət kəsdiyim gündən qət etmişəm ki, Musa Əbdülhüseyn oğlu qaya parçası ilə qədim daş dilində, min yaşlı ağacla hər hansı bir yabani bitki ilə çiçək dilində, axar sularla öz ləhcəsində çətinlik çəkmədən danışır. Bu nadir şəxsdə fəhm, təbiəti görmə, hiss etmə, ətraf mühitə özünə məxsus reaksiya adi adamınkından qat-qat yuxarıdır".

Hacı Musa müəllimə sağlamlıq və yeni uğurlar arzu edirəm.

***Hacı Elxan Ağayev,***
***Təngəbin kəndi***

**Nizami Suvarov bacarıqlı tibb işçisi kimi fəaliyyət göstərdiyi ərazidə hörmət, nüfuz qazanmışdır. Onun sadə təbiəti, doğma yurduna qəlbən bağlı olması ona böyük hörmət qazandırmışdır. Bütün bunlara görə o, təriflənməyə, təqdir olunmağa layiqdir.**

# Ağ rəngin işığında

**Nizami Suvarov 1961-ci ildə Bradi kəndində həyata göz açmışdır. Uşaq yaşlarından hər şeylə maraqlanmış, iti ağlı, zəkası və dərin düşüncəsi ilə diqqəti çəkmişdi. Orta məktəbi bitirərkən gələcək həyat yolunu düzgün müəyyənləşdirmişdi. Nizami insanların sağlamlığı keşiyində durmağı ən şərəfli peşə hesab edirdi. Təhsil alıb, saf arzuların qanadlarında, ağ xalatda tibb işçisi kimi Daster kənd xəstəxanasında fəaliyyətə başladı. Bundan sonra Nizaminin işıqlı təfəkküründən, şəfalı əllərinin şərarətindən insanların qəlbi nurlanır. Ona üz tutanlara sağlam ömür, ailəsinə sonsuz sevinc bəxş etməklə özü də ucalır, sevdiyi sənətə daha da ürəklə bağlanır.**

Nizami Suvarov xəstəxanada 10 il tibb işçisi işləyir. İşlə məsuliyyətlə yanaşır, ünsiyyətdə olduğu hər kəsin yaddaşında dərin iz buraxır. Qayğıkeşlik, bacardığı hər bir işdə insanlara yardım göstərmək onun həyat amalı olur. Adamların sağlamlığını, əməyinin mühafizəsini çox böyük məharətlə qoruyur. Həmişə də öz işindən zövq alır, onunla nəfəs alır. Nizaminin yüksək mədəniyyətini, təşkilatçılıq bacarığını, həyat təcrübəsini, həmişə öyrənmək həvəsini, peşəsinə ürəkdən yanmasını görüb onu 1994-cü ildə xəstəxanaya baş həkim seçirlər.



Hazırda o, 22 ildir bu vəzifədə çalışır. Bu illəri ömrünün qaynar çağları hesab edir. Peşəsinin hörmət-izzətini sağlam əqidəsi, saf düşüncəsi ilə uca tutur. Yüzlərlə insana sağlam həyat bəxş edib. Şəfalı əllərinin sorağıyla ona müraciət edənlər naümid qayıtmır. Hər kəsə qayğı, diqqət göstərir, heç kimdən təmənna ummur. Yaxşı tibb işçisi olması Nizami üçün hər şey deməkdir. O, xəstələrini iynə, həblərlə yanaşı, eyni zamanda xoş, ümidverici sözlə də müalicə etməyi bacarır. Adamlar Nizami Suvarova inanır, onun xətrini hər evdə əziz tuturlar. Onun üçün də bu sevgi, məhəbbət dünyanın bütün var-dövlətindən ucadır. O, deyir:

- Həyatda bütün peşələr gərəklidir. Həkimlik daha müqəddəsdir. Çünki bu sahədə çalışanlar insanlara əvəzedilməz sərvət olan sağlam həyat bağışlayırlar. Məhz buna görə də həkimlərə həmişə böyük hörmət və ehtiram göstərilir. Ulu öndər Heydər Əliyev böyük müdrikliklə deyirdi ki, mənim həkimlərə həmişə, hər vaxt sevgim, qədərsiz hörmətim olub. Sənətini, ixtisasını sevən həkimlər müalicə etdikləri xəstəliklərin aqibətlərini, talelərini, hətta yuxularında da görürlər. Onların sızıltısını, göynərtisini, mayif, şikəst olmalarını varlıqlarında da duyurlar. Var gücləri ilə xəstələrin müalicəsinə, sağlamlığına çalışırlar. Bunun üçün də tam qətiyyətlə deyirəm: əlləri şəfalı, diqqətcil, qayğıkeş həkimlər insanlara ikinci ömür verir, onların ağrı-acısını canlarından çıxardırlar. Bəli, həm də əhalinin sağlam olması dövlətin möhkəmliyini, qüdrətini artırır. Sağlam adamın düşüncəsi saf, əqidəsi təmiz olur

Nizami Suvarov gözəl tibb işçisi olmaqla yanaşı, həmçinin, narahat, həssas ürəkli bir insandır. O, cəmiyyətdə üzləşdiyi neqativ hallara qarşı barışmazdır. Yaşadığı Bradi kəndinin xeyir-şərində nümunə göstərir, öz dəyərli məsləhətlərini insanlardan əsirgəmir, yaxşılıq etməyi özünə mənəvi borc bilir. Onun sağlam mövqeyi el-obanın hər işində bilinir. Beş övlad atasıdır. Uşaqları da onun kimi vətənini, xalqını dərin məhəbbətlə sevir, faydalı işlər görürlər. Səxavətlinə, dostluqda sədaqətinə də söz ola bilməz.

Nizami Suvarov Avropa Nəşr Mətbu Evinin "İlin ən yaxşı həkimi" Qızıl medalına və diplomuna layiq görülmüşdür. Onu təbrik edir, daha yüksək nəticələr arzulayırıq.

***Zəfər Orucoğlu***



# 50 il – əsrin yarısı

Şair-publisist Teyyub Ağayevin 50 yaşı Sumqayıt şəhərində qeyd edilmişdir. Biz də qələm yaddaşımızı təbrik edir, ona yeni yaradıcılıq uğurları, möhkəm cansağlığı arzulayırıq.

Teyyub Ağayev hər şeydən əvvəl, istedadlı, alicənab, haqqədalətli hər şeydən uca tutan, kamil iman sahibi, sədaqətli dost, yurd təəssübkeşidir. Çap etdirdiyi kitablar yaddaqalan, oxunaqlıdır. Lerikə, onun təbii gözəlliklərinə, xeyirxah adamlarına bir neçə əsər yazıb çap etdirmişdir. O, "Lerik" qəzetinin fəal oxucusudur. Ədəbi mühitlə daim maraqlanır, tənqidi fikirlərini söyləyir. Deyir ki, hələ ən yaxşı əsərlərimi yazmadığı əsərlərdir

Teyyub, sənə dünyada ən şirin nemət olan cansağlığı, uzun ömür diləyirəm. İstəyirəm ki, qabaqkı illərdə səni gözləyən arzularına qovuşasan

*"Lerik"*

# "Biznesə başla" mövzusunda təlim keçirildi

Lerik şəhərinin "Elvin" şadlıq sarayında Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun dəstəyi, Lerik Rayon İcra Hakimiyyəti, Lerik Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Gənclərin İnkişafına Dəstək İctimai Birliyinin "Cənublu gənclərin peşə və sahibkarlıq bacarıqlarının artırılması layihəsi"nə uyğun olaraq "Biznesə başla" mövzusunda təlim keçirilmişdir. Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Rafiq Əzizov, Lerik rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov, rəis müavini Elçin Fazilov, GİD İctimai Birliyinin sədri, layihə rəhbəri Murad İbrahimov, Lerik Rayon Texniki Peşə Liseyinin tələbələri və 50 nəfərə yaxın gənc iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Lerik GİI-nin rəisi Natiq İsaqov gənclərin öz bilik və bacarıqlarının, təbii potensialının effektli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin bu gün ölkə Prezidenti möhtərəm İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsindən söz açdı.

Tədbirdə çıxış edənlər gənclərin hərtərəfli inkişafının, onların dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsinin gənclər siyasətinin əsas prioretləri olduğunu bir daha vurğuladılar.

Təlimçi Nihah Mahmudlu rayon gənclərinin məşğulluğu, iş mühitinə, peşə bacarıqlarının inkişaf etdirilməsinə, biznesə, sahibkarlığa, xüsusilə də kənd təsərrüfatını sahibkarlığına cəlb etməklə iqtisadiyyatımızın inkişafına dəstək olmaq, həmçinin, sahibkarlığa iddialı gənclərlə innovativ düşüncə bacarıqlarının artırılmasına yardımçı olmaq sahəsində təqdimat etmişdir.

Daha sonra iştirakçıların sualları cavablandırılmış və onlara şəhadətnamələr təqdim olunmuşdur.

**Elçin Fazilov,**
*Lerik Rayon Gənclər və İdman İdarəsinin rəis müavini*

# HƏR EVDƏ İŞIQ YANIR

Dekabrın 4-də və 5-də əsən şiddətli külən ən çox Lerikin elektrik təsərrüfatına ziyan vurmuşdu. Bunu nəzərə alan Lerik rayon elektrik şəbəkəsinin rəisi Sərhab Həsənov mühəndis-texnik işçilərini səfərbər etdi və operativ təmir briqadası yaratdı. Lerik RİH-in və "Azərişıq" ASC-nin köməyi ilə dəymiş ziyanın nəticələri aradan qaldırıldı. Kəndlər elektrik enerjisi ilə təmin edildi.

Şəbəkənin rəisi Söhrab Həsənov deyir:

- Külək bizi imtahana çəkdi. Əhalini işıqsız saxlamaq olmazdı. Biz "Azərişıq" ASC-nin rəhbərliyinə müraciət etdik. Qısa vaxtda şəbəkəmizə 182 ədəd dəmir elketrik dirəyi, 5 km uzunluğunda naqil, müxtəlif izolyatorlar göndərildi. Ən çox ziyan Şingədulan ərazisinə dəydiyindən diqqət və əraziyə yönəldildi. Hazırda xətlərdə təmir-bərpa işləri davam edir. Fədakar və təcrübəli elektriklərimiz təbiətin hər bir şıltaqlığını aradan qaldırmağa qadirdirlər.

*"Lerik"*



*Şəkildə: Lerik DYP-nin yol-patrul xidmətinin baş inspektoru Vüsal Əliyev minik maşını sürücüsünün sənədlərini yoxlayarkən*

## Bizim yol polisləri

Yollarda qoruyurlar qanunları, qaydanı,
Millətinə, xalqına fəda edirlər canı.
Dövlətə xidmət edir, təhlükədir hər anı,
Asayişdə durublar bizim yol polisləri.

Suretini artırıb kim aşarsa həddini,
İşdə təmkinli olur, boğur qəzzəbi, kimi,
Ləyaqətlə, şərəflə görürlər öz işini,
Asayişdə durublar bizim yol polisləri.

Peşələri olsa da, başqa sənətdən çətin,
İşlərində olurlar çox cəsarətli, mətin.
Həmişə sürücünün saxlayırlar hörmətin,
Asayişdə durublar bizim yol polisləri.

Yolda sərxoş görsə, güzəşt getməz heç kimə,
Həmin sürücü gərək cavab versin hakimə.
Qəzaya düşənləri tez çatdırar həkimə,
Asayişdə durublar bizim yol polisləri.

Şərəflə, ləyaqətlə qoruyurlar qanunu,
Heç kim döndərə bilməz getdiyi yoldan onu.
Bilirəm, müqəddəsdir çiynindəki paqonu,
Asayişdə durublar bizim yol polisləri.

*Yədulla Bağırov*

## Gülnar həkim

Qəlbiniz gözəldir, qəlbimiz təmiz,
Bütün xəstələrə olmusuz əziz.
Şirindir, baldır sizin diliniz,
Allah sizi bədnəzərdən saxlasın.

Deyirəm, həyatda nə yaxşı varsız,
Hamı tərəfindən xatırlanırsız.
Xəstələrin "sağ ol"ları varınız,
Allah sizi bədnəzərdən saxlasın.

Xəstəyə məlhəmsiz, xəstəyə dərman,
Onlar sevəcəklər sizi hər zaman.
Həyatda ömür sür daim şadiman,
Allah sizi bədnəzərdən saxlasın.

Şeirimə, sözümə nöqtə qoyuram,
Allahdır hər kəsi şərdən qoruyan.
Sizə can sağlığı arzulayıram,
Allah sizi bədnəzərdən saxlasın.

*İlhamə Şıxəliyeva*

## MÜƏLLİM

*Öz xalqına bağlanan, xalqı üçün şam kimi əriyən sevimli müəllimim Paşa Allahverdiyevə həsr edirəm.*

Əlçatmaz zirvədə durur şöhrətin,
Ülvi meyarısan, sən həqiqətin.
Daim pöhrələnir sənin zəhmətin,
Əməyin nur saçır, daim müəllim.

Üzündə təbəssüm, qəlbində nə qəm,
Şux körpə əlinə sən verdin qələm.
Kitabı özünə seçmisən həndəm,
Zəhmətin parlayır, daim müəllim.

Günəş tək nur saçıb çox uzaqlara,
Sorağın yayılıb bağça, bağlara.
Bilik, savad verdin sən uşaqlara,
Hər qəlbdə əzizsən, daim müəllim.

Elmin bağçasında gül-çiçək əkdin,
Əkdiyin güllərin qayğısın çəkdin.
Memar tək bilikdən bir bina tikdin,
Hər işdə mahirsən, daim müəllim.

Hamıya, həmişə doğmadır adın,
Zülmət qaranlığı işıqlandırdın.



Şaranlıq gecədə şamlar yandırdın,
Zülmətin içində nursan, müəllim.

Sevimli xalqıma tükənməz varsan,
Boranlı günlərdə güllü baharsan.
Tükənməz xəzinə, sən iftixarsan,
Sənə minnətdaram daim, müəllim.

## SÖZÜM SİZLƏRƏDİR

Hədər axıtmayın, günahsız qanı,
Diqqətdə saxlayın, bütün cahanı.
Pay, sovqat verməyin Azərbaycanı,
Ümid sizlərədir, lider dövlətlər.

Gəlin ədaləti çəkməyin dara,
Eyni gözlə baxın, siz insanlara.
Mənim millətimə yaxmayın qara,
Vaxtıdır, son qoyun siz işğallara.

Daim qorudunuz ıarkisyanları,
Unutduz, bir anlıq şəhid qanları.
Fəxrə layiq saydız fkopyanları,
Sözüm sizlərədir, böyük dövlətlər.

Dünyanın qəlbinə vurmayın yara,
Qarabağ dərdinə arayın çara.
Rəhm edin, rəhm edin siz insanlara,
Sözüm sizlərədir, lider dövlətlər.

Dəqiq fikirləşin, yüz ölçüb, biçin,
Sülhü, azadlığı doğru yol seçin.
Müharibə arzusun üstündən keçin,
Qoruyun dünyanı, lider dövlətlər.

Azad Vətənimiz sevinclə dolsun,
Şən, məsum körpələr oynasın, gülsün.
Əbədi azadlıq himnimiz olsun,
Sözüm sizlərədir, lider dövlətlər.

***Muradəli Hüseynov,***
*Hamarat kəndi*

## Sirrindən baş açmaq olmayır, Allah

Bu gün hökm verən, sabah günahkar,
Bu gün sağlam olan, sabah olur kar.
Bu gün günəş olur, sabah isə qar,
Sirrindən baş açmaq olmayır, Allah.

Bu gün xanlıq edən sabah can verir,
Milyonçu, dilənçi dünyadan gedir.
İnsan yaşadıqca dünyadan bezir,
Sirrindən baş açmaq olmayır, Allah.

Bir gündə gah gecə, gah gündüz olur,
Gah selləmə yağış, gah duman olur.
Çiçəklər gül açır, vaxtsız da solur,
Sirrindən baş açmaq olmayır, Allah.

Əkrəm hey düşünür, xəyala dalır,
Gecə-gündüz sirrinə məəttəl qalır.
Hər möcüzən onu heyrətə salır,
Sirrindən baş açmaq olmayır, Allah.

*Əkrəm Xürrəmi*

## SİZ ELÇİN VƏKİL OĞLU ŞAMIYEVİ TANIYIRSINIZMI?



O, 1965-ci ildə anadan olmuşdur. 1992-ci ilin fevral ayının 26-da - yəni Xocalı qətliamı baş verən gündən erməni cəlladlarına qarşı qeyri-bərabər döyüşdə mərdliklə vuruşmuş, bir neçə güllə yarası alaraq əsir götürülmüşdür. Elçin Şamıyev işgəncələrlə öldürülmüşdür. Onun məzarı Bakının Şəhidlər Xiyabanındadır.

"Lerik"in gələn saylarında Elçin Şamıyev haqqında yazılmış oçerki oxucularımıza təqdim edəcəyik.

Bizi izləyin.

# XALQ TƏBABƏTİNDƏN SEÇMƏLƏR

## Ürəyi, qaraciyəri, immuniteti möhkəmləndirən, arıqladan DƏMLƏMƏ



Sizə çox faydalı dəmləmənin reseptini təqdim edirik. Bu dəmləmə ürək və qaraciyər üçün çox faydalıdır.

Həmçinin dəmləmə mübadilə prosesləri, piylərin parçalanmasını sürətləndirir və bununla da arıqlamağa kömək edir.

Təqdim etdiyimiz dəmləmə immun sistemini möhkəmləndirir, soyuqdəymə və qripp xəstəliklərinin qarşısını alır.

Dəmləmənin inqrediyentləri orqanizmi ziyanlı maddələrdən təmizləyir, iltihabı azaldır, xolesterolun səviyyəsini aşağı salır, arterial təzyiqi tənzimləyir.

Dəmləməni hazırlamaq üçün axşamdan termosa 1 ovuc əzilmiş itburnu meyvələri, 1/3 çaya qaşığı darçın, 3-4 sm uzunluqda rəndələnmiş zəncəfil kökü tökün, üzərinə yarım litr isti su tökün , səhərə qədər dəmləyin. Səhər tənzifdən yaxşı süzün və gün ərzində çay kimi qəbul edin. Qəbul etdikdən əvvəl dəmləməyə bal əlavə edin.

## Öskürəyi sağaldan dəmləmə. Sınanmış resept



Öskürək ayrı xəstəlik deyil, bir çox hallarda soyuqdəymənin simptomu kimi meydana çıxır. Öskürək orqanizmin müdafiə mexanizmidir. Öskürəyin köməyi ilə nəfəs yollarımız xəstəlik zamanı burada yığılan mikroblar, toksinlər, selik və s.-dən azad olur. Bu prosesi tezləşdirmək üçün daha çox iliq maye qəbul edin - selik durulaşır və onun xaric olunması asanlaşır.

Bəzi xalq təbabəti vasitələri nəfəs yollarının daha tez təmizlənməsinə kömək edir. Sizə ən sınanmış reseptlərdən birini təqdim edirik:

- 1 çay qaşığı biyan kökü, 1 çay qaşığı dəvədabanı, 1 çay qaşığı bağayarpağı 1 stəkan qaynar suda 30 dəqiqə ərzində dəmləyin, süzün və gün ərzində qəbul edin. Bu otlar bəlğəmgətirici və iltihabəleyhinə təsir edir, öskürəyin sağalmasını tezləşdirir.

Öskürək 1 həftədən çox davam edir, artır, bəlğəmdə qan, irin əmələ gəlirsə, vaxt itirmədən həkimə müraciət edin. Bu ciddi xəstəliyin simptomu ola bilər.

## Qəbizlikdən azad olmaq üçün 1 çay qaşığı noxud unu



Noxud unu xalq təbabətində müxtəlif xəstəliklər zamanı müalicəvi vasitə kimi istifadə olunur.

Nutrisioloqlar (təbii məhsullarla müalicə edən mütəxəssislər) noxud ununu ateroskleroz, şəkərli diabet, ürək xəstəlikləri, qəbizlik zamanı qəbul etməyi tövsiyə edirlər.

Bunun üçün mütəxəssislər hər gün 1 çay qaşığı noxud unu qəbul etməyi tövsiyə edirlər.

Qəbizlikdən əziyyət çəkənlər yatmazdan əvvəl 1 çay qaşığı noxud unu və yarım stəkan su qəbul etməlidir.

Noxud unu çox asan hazırlanır - bunun üçün noxud qəhvəüyüdəndə üyüdülür.

## Baş ağrısı zamanı gicgahlara çəkin...



**Baş ağrısı zamanı dərhal dərmana əl atmayıb. Bəzi ziyansız təbii vasitələr baş ağrısını çox yaxşı azaldır.**

Bu vasitələrdən biri nanə efir yağıdır.

Baş ağrısı zamanı yağı gicgahlara və ənsə nahiyəsinə çəkib yüngül massaj edin və sakit qaranlıq yerdə bir az uzanın. Tez bir zamanda baş ağrısının azalmasını hiss edəcəksiniz.

Nanə yağından əlavə limon, bibəriyə, lavanda, qızılgül efir yağları da baş ağrıları zamanı çox effektlidir.

# Filmlərimiz Hindistanın beynəlxalq film festivalında

**Hindistanın 5-ci Delhi Beynəlxalq Film Festivalının müsabiqə proqramında C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Dərs" və "Onun atası" bədii filmlərinin nümayişi baş tutub.**

"Azərbaycanfilm" kinostudiyasından bildirilib ki, festival Yeni Delhi şəhərində keçirilib.

Filmlər Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə təntə alınıb.

"Dərs" tammetrajlı bədii filminin ssenari müəllifləri Elza Ağayeva və Anastasiya Volkova, quruluşçu rejissorları Rafiq Əliyev və Cavid Təvəkkül, quruluşçu operatoru Rauf Qurbanəliyev, quruluşçu rəssamı Fikrət Ələkbərov, bəstəkarı Tünzalə Ağayeva, icraçı prodüseri Vüsal Abbasov, prodüseri Müşfiq Hətəmovdur.

Filmdə baş rolları Tamerlan Ağayev, Aliyə Əliyeva, Rəşid Əliyev, Ayna Zərbəliyeva, Nazim İbrahimov, Mənsurə Əhmədova və digərləri canlandırıblar.

"Onun atası" bədii filmi "40-cı paraleldə" kinoalmanaxına daxil olan qısametrajlı filmlərdən biridir.

Filmin ssenari müəllifi və quruluşçu rejissoru Zamin Məmmədov, quruluşçu operatoru Əli Sultanov, quruluşçu rəssamı Arif Niftiyev, icraçı prodüseri Rəhim Sadıqov, prodüseri Müşfiq Hətəmovdur. Ekran əsərində baş rolları Şamil Süleymanlı, Fateh Tahirov, Məbud Məhərrəmov və Ülviyyə Rza canlandırıblar. "


## "LERİK"Ə ABUNƏ OLUN

2017-ci ilin I yarımilliyi üçün "Lerik" qəzetinə abunə kampaniyası başlanmışdır.

6 aylıq abunə qiyməti
10 manatdır.

Əlavə məlumat almaq üçün "Mətbuatyayım"ının Lerik rayon şöbəsinə (027) 4-55-18, Lerik Post Filialına (027) 4-55-14, redaksiyamıza (027) 4-54-50 nömrəli telefonlara zəng edin.




– Nə xəbər var, Məşədi?
– Allah kəssin belə bazarı.




Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36.
Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 345 Tiraj: 500

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935
Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.